# Rza İsayev: pribaltika cəbhələrindən keçən qəhrəman

9 may 2023-cü ildə SSRİ xalqlarının faşizm üzərində qələbəsindən 78 il ötür. Hər nə qədər qələbə möhtəşəm səslənsə də II Dünya müharibəsi bir çox xalqların genofonduna neqativ təsir göstərəcək qədər miqyası geniş, milyonlarla insan taleyinin naməlum qalması faktları ilə zəngindir. Ötən illər ərzində aparılan araşdırmalar və dövrü tədqiq edən mütəxəssislər tarixi qələbənin üzərindən uzun vaxt keçməsinə baxmayaraq, ağrı və acıların, savaşın buraxdığı izlərin hələ də xatırlandığını göstərir. Müharibənin gətirdiyi məhrumiyyətlər, yaxud döyüşün hərbi, siyasi, sosial-iqtisadi zərərləri hələ də bir sıra tədqiqatlara mövzu olur, gün üzünə çıxarılan arxiv sənədləri bir çox mətləblərdən xəbər verir. Müharibənin insanlara yaşatdığı çətinliklərə və maneələrə baxmayaraq, səngərlərdə müxtəlif xalqlarla çiyinçiyinə vuruşmuş, qəhrəmanlıq dastanları yazmış azərbaycanlı zabit və əsgərlərin sayı az olmamışdır. Əksinə II Dünya müharibəsi qəhrəmanlarının ömür və döyüş yolu yeni əsərlərin yazılmasına əsas yaradır.

Sovet tarixi Azərbaycanda 70 illik, bir əsrə yaxın dövrü əhatə edir. Həmin illər respublikada kifayət qədər ziddiyyətlər və rejimin xəyanətlərilə müşühidə olunmuşdur. Xüsusilə sovetləşmənin ilk illəri Azərbaycanda milli ruhlu insanların, ziyalıların edam olunması ən yaxşı halda sürgünlərlə əvəz olunmuşdur. Sonrakı illərdə də azərbaycanlı intellektualların və vətənpərvər insanların təqibləri davam etmişdir. Yüzlərləailələr gözü yaşlı və başsız qalmış, maddi çətinliklər, sosial müdafiənin aşağı səviyyədə olması kommunist təfəkkürünün qurucu yox, milli və mənəvi dəyərlərə qarşı çıxan, dağıdıcı və bəşər tarixinə qanlı hakimiyyət kimi daxil olmasına rəvac vermişdir. Bu səbəbdən,tədqiqat aparmaqda məqsədimiz sovet ideologiyasının təbliğinə deyil, əksinə Rza İsayev kimi unudulmuş və tarixin dərin qatlarında saxlanmış, qəhrəman Aərbaycan oğullarını gənclərə tanıtmaq, onların döyüş əzmini, cəbhə meydanlarında faşizmə qarşı istifadə etdikləri taktik gedişləri, zəruri məlumatları çatdıraraq tarixmizin kiçik bir parçası olan müharibə ilə bağlı maarifləndirməkdən ibarətdir.

Bu uzun və məşəqqətli savaş yolunda Azərbaycan xalqı yaxından iştirak edərək yüz minlərlə gənci qızğın döyüşlərin aparıldığı cəbhə meydanlarına göndərmişdir. Onların əksəriyyəti yaralı, yaxud sağlam geri dönsələr də bir çoxları itgin düşmüş, həbsə məhkum olunmuş, bir sözlə taleyi hələ də naməlum qalan azərbaycanlılar haqqında məlumatlar məhdud, demək olar ki, yox dərəcəsindədir. Bununla yanaşı Rusiya Müdafiə Nazirliyinin Mərkəzi Arxivinin elektron dövriyyəyə buraxdığı arxiv materialları II Dünya müharibəsi illərində döyüş rəşadəti göstərmiş, yüksək orden və medallarla təltif olunmuş azərbaycanlılar haqqında informasiya almaq baxımından əvəzsiz mənbə rolunu oynayır. Belə Azərbaycan oğullarından biri, cəsur döyüşçü, 1 yanvar 1916-cı ildə Vətənin cənnət guşələrindən - Qubanın Zizik kəndində anadan olmuş İsayev Rza Qaraxan oğludur. İgid azərbaycanlının doğulub boya-başa çatdığı kənd hələ XX əsrin əvvəllərində qəhrəman oğulları ilə şöhrət qazanmışdır. Yaxın tarixdən bizə məlum olan polkovnik Əlibəy Harunbəy oğlu Zizikski (1876-1929) 1918-ci ildə bolşevik və daşnakların dinc azərbaycanlılara qarşı törətdikləri soyqırımına biganə qalmamış, silahlı dəstələr təşkil edərək Bakı yaxılınğında, eləcə də Quba dağlarında istehkam quraraq vuruşmuş,düşmənə qarşı qətiyyətli mübarizə aparan qəzanın tanınmış bəy nəslindən olmuşdur. O dövrdə Rza İsayevin cəmi iki yaşı var idi və Əlibəyin döyüş ruhunu, torpağa, elinə-obasını bağlılığını uşaqlıqdan əxz etmiş Vətən oğlu Rusiyanın uzaq Pribaltika cəbhələrində şərəfli döyüş yolu keçərək yaddaşlarda yaşmaq haqqı qazanmış azərbaycanlılardan sadəcə biri idi. Onun kimi yüzlərlə azərbaycanlı oğullar II Dünya müharibəsi illərində, döyüş meydanlarında şücaət göstərsələr də üzə çıxarılmaması, haqlarında sənədli bioqrafiyaların yazılmaması hazırki mövzunun




Vətən tarixşünaslığı üçün nə qədər əhəmiyyət daşıdığını göstərir.

Qubanın Zizik kəndi həmçinin I Qarabağ döyüşlərində şəhid olmuş Əliheydər Rüstəmov (1974-1993) və "44 günlük" II Qarabağ müharibəsində şəhadətə ucalan, "Vətən Müharibəsi Qəhrəmanı" yüksək statusuna layiq görülən sərhəd kəşfiyyatçısı Şahin Allahyarovla da (1993-2020) tanınır, şöhrəti eldən-elə gəzir. Bizim haqqında tədqiqat apardığımız qəhrəman isə Zizikin unudulmuş II Dünya müharibəsi igidlərindən birinin ömür və döyüş yolu, cəbhə gündəliyindən bəhs edir.

Hazırda mübariz Rza İsayevin doğulduğu gündən 107, vəfatından isə 26 il ötür (1997). İki onillikdən yuxarı vaxt keçməsinə baxmayaraq onun cəbhələrdə, döyüş meydanlarında göstərdiyi hünər və yüksək rəşadəti haqqında xoş xatirələr məqalələrdə və şəkildə gördüyünüz sənədli bioqrafik tədqiqatda geniş təhlillər aparılaraq öz əksini tapmışdır. Təkcə 1944-cü ildə layiq görüldüyü "İgidliyə görə" medalı və "Şöhrət" ordeni Rza İsayevin düşmənlə mübarizə cəbhəsində nə qədər ayıq-sayıq və yüksək təltiflərlə mükafatlandırılan azsaylı soydaşlarımızdan biri olduğunu göstərir.

Mürəkkəb müharibənin yaşandığı 2-ci və 3-cü Pribaltika cəbhələrində düşmənlə üz-üzə dayanan, sərhəd kəşfiyyatçısı və sərrast atıcı kimi arxiv sənədlərində qeydlərə, təltif vərəqələrinə rast gəlinən Rza İsayev haqqında kiçik yazı ilə başladığımız tədqiqat dövrü nə az, nə çox düz beş ilimizi bu şərəfli işə səfərbər etdi. Haqqında fərziyyələrdən daha çox faktların üzə çıxarılması tədqiqatın ikinci mərhələsində daha çox faydalı oldu və yuxarıda adı çəkilən məlum arxivin təqdim etdiyi mühüm sənədlər Rza İsayevin onlarla alman hərbi qulluqçusunu məhv etdiyini, işində nə qədər məsuliyyətli, nizam-intizamlı, hərb işini dərindən mənimsədiyini göstərir.

Şəkildə gördüyünüz 496 səhifə həcmində, yeddi fəsildən ibarət "Şərəfli ömür və döyüş yolu" adlı sənədli bioqrafiyanın birinci fəsli "Rza İsayevin həyatı", uşaqlıq, gənclik illəri, şəcərə tarixindən bəhs edir."Zizikdən Pribaltika cəbhələrinə" adlanan ikinci fəsil Vətən oğlunun cəbhə həyatına həsr olunub və kitabın əsas məzmununu təşkil edir.Kitabın üçüncü fəsli "Rza İsayevin təltifləri" adlanır. Burada qəhrəman azərbaycanlının müharibə illərində göstərdiyi rəşadət, qüsursuz kəşfiyyatçı və atıcı kimi hərbi xidmətinin nəticəsində, təltif olunduğu orden və medallar, onların vəsiqələri, təltif vərəqələri, hərbi hissənin əmrləri öz əksini tapır. Hər bir təltif ayrı-ayrılıqda, paraqraflara bölünərək şərh olunur. Kitabın "Yaralı qızıl əsgər" adlanan dördüncü fəsli müharibə illərində müvəqqəti təxliyə hospitallarının təşkili ilə başlayır. Fəsildə Rza İsayevin Pribaltika döyüşlərinin birində sağ bud sümüyündən aşağı, diz nahiyəsindən ciddi yaralandığını təsdiq edən iki arayış tədqiqata cəlb edilmişdir. Burada Rza İsayevin 9 ay ərzində müalicə aldığı, Yaroslavl şəhər hospitalı haqqında kiçik qeyd və hospitalın şəkli təqdim olunur.Kitabın "Zizikin müharibə veteranları" adlı beşinci fəslində Rza İsayevin müharibədə iştirak etmiş 142 həmkəndlisi (66 nəfərin döyüş yolu, təltifləri, itgin düşən, vəfat edən, xidməti yeri dəyişilən, məhkum olunanlar) haqqında sənədlər təhlil olunmuşdur. 32 nəfərin müharibədə iştirakına dair sadəcə ad, soyadları və ya ata adları aşkar edilmiş, 44 nəfər kənd sakininin 1941-1945-ci illərə əsasən müharibə dövrü yaşları (18-55) qəbir daşları üzərindən müəyyən olunmuş və siyahı kitaba əlavə olunmuşdur.Kitabın "Müharibədən sonrakı illər" adlanan altıncı fəslində Rza İsayevin ağır müharibə illəri başa çatdıqdan sonrakı dövrdə həyatına, haqqında döyüş xatirələrinə nəzər salınır. Kitabın sonuncu, "Rza İsayevin ailə arxivindən" adlanan yeddinci fəslində qəhrəman qazinin şərəfli ömür yoluna diqqət yetirilir. Ailə dəyərləri, fotoları, ömürgün yoldaşı - Zizik kəndinin ilk şəfqət bacılarından olmuş Sərvinaz İsayeva, övladları, sovet ordusunda xidmət etmiş və I Qarabağ döyüşlərində düşmənlə vuruşmuş çavuş nəvələri haqqında məlumat verilir.

Kitabın "Nəticə" hissəsində tədqiqata yekun vurulur. Burada atıcı və kəşfiyyatçı Rza İsayevin ömür və döyüş yolu ümumiləşdirilərək tədqiqat boyu alınan müsbət nəticələr sadalanır. "Əlavələr" bölməsində Rza İsayevin təltif olunduğunu təsdiq edən arxiv materialları, sosial vəsiqələri, ailə yadigarı olan əşyaların fotosu, qəhrəman veteranın əmanət kitabçasından fraqment, Rza İsayevin Zizik kəndindən olan dostları və həmkəndliləri də daxil olmaqla, təltif olunan qubalı veteranların şəhər arxivindən əldə olunan bütöv siyahısı, qəhrəman haqqında "Elm" qəzetində nəşr olunmuş "Şöhrət" ordenli atıcı və kəşfiyyatçı" adlı məqalə öz əksini tapır.

Kitab AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun 26 yanvar 2022-ci il tarixli elmi şurasının qərarı ilə nəşrə tövsiyə olunmuşdur. Tədqiqatın elmi redaktoru, məsləhətlərini bizdən əsirgəməyən,Azərbaycanın sovet dövrü tarixi üzrə mütəxəssis, t.e.d., professor Mais Əmrahov, həmçinin rəyçilər - dövrü araşdıran t.ü.f.d., dosent İlqar Niftəliyev və polkovnik, siy.e.ü.f.d, dosent Cəlil Xəlilovdur.

2020-ci ilin Vətən müharibəsində tarix yazan Azərbaycan şəhidlərini rəhmətlə anaraq qeyd etmək lazımdır ki, babalarımızın faşizmlə mübarizədə göstərdikləri hünər və cəsarət müasir dövrdə unudulmur, onların yaşayıb yaratdıqları döyüş dastanları XXI əsrdə gənclərdə düşmənlə mübarizədə inam və ruh yüksəkliyi aşılayır.

Hazırda II Dünya müharibəsi veteranlarının postsovet məkanında, eləcə də Azərbaycanda sayları kəskin şəkildə azalmaqdadır. Həyatda qalan müharibə iştirakçıları ilə aparılan müsahibələr, yaxud vəfat etmiş veteranların döyüş irsininöyrənilməsi yeni və bilinməyən, maraqlı tarixi faktların üzə çıxarılmasında əvəzsiz mənbələrdir. Bu səbəbdən, qəhrəman Vətən oğlu Rza İsayev dövrünün igidlikləri ilə yadda qalan və yüksək təltiflərə layiq görülən azsaylı azərbaycanlılardan biri kimi tanınmaqda davam edəcək. Gənclərimizin vətənpərvər ruhda böyüməsində belə dəyərli insanların ömür və döyüş yolu vəfatından sonra da nümunə təşkil edir. Rza İsayev və silahdaşları, II Dünya müharibəsi illərində döyüş rəşadəti ilə seçilmiş soydaşlarımız haqqında araşdırmalar davam edir. Növbəti tədqiqat və elmi-publisistik məqalələrdə üzə çıxarılan qəhrəman azərbaycanlılar haqqında məlumatlar təqdim olunacaq.



***Aqil P.ƏHMƏDOV,***
***Dosent, tarix üzrə fəlsəfə doktoru***
***agilahma@gmail.com***